**“AZIPS-in iştirakçılarının fövqəladə hallar zamanı Fəaliyyətinin Davamlılığının təmin edilməsi üzrə Tövsiyələr”**

1. Fövqəladə hallarda bərpa planı müxtəlif mümkün halları, o cümlədən təbii fəlakət, avadanlığın sıradan çıxması, terrorçuluq, kənardan müdaxilə, rabitə kanallarının kəsilməsi nəticəsində dayanmaları əhatə etməli və bu halların hər biri üzrə 2 (iki) saatdan gec olmayaraq iştirakçının AZİPS-də fəaliyyətinin bərpa edilməsi nəzərdə tutulmalıdır.

2. İştirakçı əsas mərkəzdə istifadə olunan eyni kritik infrastruktur avadanlığının, sistem konfiqurasiyasının (texniki və proqram təminatı üzrə yeniliklər və dəyişikliklər), alternativ rabitə xətlərinin, dayanıqlı elektrik cərəyanının və yanğınsöndürmə qurğularının ehtiyat mərkəzdə də yaradılmasını təmin etməli, habelə avadanlıqların texniki vəziyyətini dövrü olaraq nəzərdən keçirməli və yeniləməlidir.

3. Ehtiyat mərkəz ilə verilənlərin real vaxt rejimində replikasiya edilməsi üsulu istifadə edilməlidir.

4. Ehtiyat mərkəz istənilən anda əməliyyatların real rejimdə aparılmasına hazır olmalı, həmin mərkəzdə işçi heyəti uzun müddətli fəaliyyətini həyata keçirmək üçün lazımi şəraitlə təmin edilməlidir.

5. İştirakçı fövqəladə hallara hazırlıq səviyyəsini yoxlamaq üçün ehtiyat mərkəz vasitəsilə il ərzində ən azı 4 (dörd) dəfə real vaxt rejimində əməliyyatlar aparmalıdır.

6. İştirakçı fövqəladə hallarda məlumat mübadiləsinin aparılması məqsədi ilə müvafiq əməkdaşlar (əsas və əvəzedici şəxslər olmaqla) təyin etməli və bu haqda onları təlimatlandırmalıdır.

7. İştirakçı AZİPS-də fəaliyyətinin dayanmasına səbəb olmuş hallar üzrə qeydiyyat jurnalı tərtib etməli və bu jurnalda hadisənin təfsilatını və baş verdiyi tarixi, onun aradan qaldırıldığı müddəti və görülən işləri əks etdirməlidir.